**Bakı Xəbər**. - 2024. - 25 iyun. - № 108. - S. 8.

## Ətraf mühitin mühafizəsində Azərbaycan nümunəvi ölkələr sırasında yer aldı...

**Samirə Səfərova**

**Dünyada, demək olar ki, bütün ölkələr insan sağlamlığına və ekosistemlərə mənfi təsir göstərən ciddi ekoloji problemlərlə üzləşir. Bununla belə, ehtiyatların və vətəndaşların sağlamlığının qorunması zərurətini nəzərə alaraq, müxtəlif ölkələr ekoloji böhranların qarşısını almaq üçün fəal şəkildə tədbirlər hazırlayır və ətraf mühitin vəziyyətinin yaxşılaşdırılması üçün innovativ yanaşmalar tətbiq edirlər. Azərbaycan da onların sırasında yer alır.**

### Ölkəmizdə ekoloji sferada köklü transformasiya yaşanır

Bu gün Azərbaycanda ekoloji sferada köklü transformasiya gedir. Onu da xüsusi qeyd etmək lazımdır ki, yerli, regional və qlobal ekoloji problemlərin səmərəli idarə olunması, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində regional əməkdaşlığın gücləndirilməsi, ölkəninelmi və intellektual potensialının bu istiqamətdə reallaşdırılması üçün innovativ ideyaların, təcrübələrin və texnologiyaların tətbiqi də xüsusi diqqət mərkəzindədir. Bu il COP29 tədbirlərinin Azərbaycanda keçirilməsi də qeyd edilənlərin bariz nümunəsidir.

Qeyd olunanlar fonunda prezident İlham Əliyev “Euronews” telekanlına müsahibəsində iqlim dəyişikliyi kimi qlobal bir problemlə bağlı Azərbaycanın həyata keçirdiyi layihələrdən, eləcə də COP29-a hazırlıq işlərindən danışarkən deyib: “Ötən ilin oktyabrında ölkəmizdə 230 meqavatlıq ilk Günəş enerjisi stansiyasının açılışı oldu. Perspektivdə 10 qiqavata və 2030-cu ilədək 5 qiqavata qədər gücü əhatə edən bütün müqavilələr və anlaşma memorandumları icra olunacaqdır... Ölkə ənənəvi enerjidən əldə etdiyi gəlirləri hazırda bərpaolunan enerjiyə yönəldir. COP29-a ev sahibliyi edəcək ölkə kimi yaşıl enerjiyə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir”. Azərbaycan nəzərə alır ki, Yer kürəsində bütün həyat formalarının yaşaması ətraf mühitin məkan və zaman baxımından sağlam və tarazlı inkişafının xarakterik xüsusiyyətidir. Yeni iqtisadi nizam indi və gələcəkdə balanslaşdırılmış inkişafı təmin etmək üçün ətraf mühitin mühafizəsini məcburi etməlidir. Meşələrə, ağaclara və əkin sahələrinə karbon tullantıları kimi yox, lakin onlara həyatımız üçün təmiz hava təmin edən sistemlər kimi baxılmalıdır. Qeyd edək ki, son onilliklərdə mühəndislik və texnologiyanın sürətli inkişafı insan həyatının bütün sahələrində ən mühüm elmi kəşflərə, eləcə də bir çox ölkələrin iqtisadiyyatının böyüməsinə və güclənməsinə səbəb olub. Amma geniş istehlak əsrimizdə texnika və texnologiyanı təkmilləşdirməklə insanlar ətraf mühiti çirkləndirir, bununla təkcə ətraf mühitə yox, həm də öz sağlamlıqlarına zərər vurur. Alimlərin fikrincə, planetimizdə temperaturun 2 dərəcədən çox artması geri dönməz nəticələrə - buzlaqların əriməsinə, daşqınlara, quraqlıqlara və sunamilərə səbəb olacaq. Qlobal istiləşməni dayandırmaq üçün 1990-cı illə müqayisədə növbəti 40 il ərzində istixana qazı emissiyalarını 80 faiz azaltmaq zəruridir. Siyasət, iqtisadiyyat, hüquqi tənzimləmə və marketinq, bir tərəfdən, ətraf mühiti tərəqqinin zərərli təsirlərindən qorumaq üçün tədbirlərin həyata keçirildiyi ictimai həyatın bütün sahələri, digər tərəfdən, planetin çirklənmədən qorunması ilə bağlı müəyyən bir dövlətin və ya şirkətin öhdəliklərinin yerinə yetirilməsinə nəzarət etmək üçn birbaşa təsir rıçaqlarıdır. Bunlar fonunda indi dünya ictimaiyyətində böyük əksəriyyət yalnız xüsusi günlərdə deyil, artıq hər gün ətraf mühitin təmiz saxlanılması və qorunması istiqamətində əməli işlər həyata keçirir. Çünki dünyada cərəyan edən transformasiya prosesləri, eləcə də nəzərəçarpan hadisələr birbaşa olaraq ekoloji mühitin pozulması və iqlim dəyişikliyi fonunda baş verir. Bu proses özü-özlüyündə məsul dünya dövlətləri tərəfindən ciddi addımlar atılmasını, ortaya daha aydın mövqe qoyulmasını diktə edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının hər il təşkil olunan COP tədbirlərində bu istiqamətdə görülən işlər əsas diqqət mərkəzində yer alır. Bu il COP29-un Azərbaycanda keçirilməsi bütün bu məsələlərin ölkəmizdə əsas müzakirə predmetinə çevrilməsi ilə müşayiət olunacaq.

### Azərbaycan təbiəti qorumaq üçün bir çox beynəlxalq müqavilələrin fəal iştirakçısıdır

Yuxarıda qeyd olunduğu kimi, bu gün bəşəriyyət texnosferdə mövcudluğunun təhlükəsizlik səviyyəsini yüksəltmək vəzifəsi ilə qarşı-qarşıyadır. Texnosferdə insanları antropogen və təbii mənşəli mənfi təsirlərdən qorumaq, rahat həyat şəraitinə nail olmaq bu müstəvidə çox mühümdür.

Onu da qeyd edək ki, ətraf mühitin mühafizəsi XX əsrin ortalarına qədər prioritet deyildi, baxmayaraq ki, o vaxta qədər antropogen fəaliyyətlər çoxdan təbiətə mənfi təsir göstərib. Yalnız BMT Baş Assambleyasının 27-ci sessiyasında bu məsələ ilk dəfə olaraq ciddi şəkildə qaldırıldı. Eyni zamanda, BMT sistemi çərçivəsində yeni təşkilat - Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) yaradıldı.

Elə həmin vaxt Stokholm Ətraf Mühit Konfransının başladığı gün xüsusi bayram - Ümumdünya Ətraf Mühit Günü təsis edildi. Hər il iyulun 5-də qeyd olunur və UNEP-in himayəsi altında keçirilir. Bu bayramın keçirilməsində məqsəd Yer kürəsinin hər bir sakininə xatırlatmaqdır ki, planet bizim ümumi evimizdir və onun vəziyyəti hər birimizin hərəkətlərindən asılıdır. Bu gün bütün dünyada ekoloji tədbirlər keçirilir - marafonlardan, velosiped yürüşlərindən və konsertlərdən tutmuş icma təmizliklərinə qədər. Amma onlar arasında COP tədbirləri daha böyük önəm kəsb edir. Onu da xatırladaq ki, təbiəti qorumaq üçün bir çox beynəlxalq müqavilələr hazırlanıb. Onlardan ən məşhuru, inkişaf etmiş ölkələri bütün dünyada iqlimə təsir edən istixana effektinin qarşısını almaq üçün karbon qazı emissiyalarının həcminə ciddi nəzarət etməyə məcbur edən Kioto Protokoludur. Bundan əlavə, dənizlərin mühafizəsinə yönəlmiş BMT-nin Dəniz hüququ haqqında Konvensiyası, atmosferin ozon qatını məhv edən maddələrin istehsalını və istifadəsini məhdudlaşdıran Monreal Protokolu, eləcə də Bioloji Müxtəliflik haqqında Konvensiya qəbul edilib. Eləcə də vəhşi təbiət ehtiyatlarının qorunması və rasional istifadəsi məqsədi daşıyan onlarla digər mühüm sənədlər qəbul olunub. Azərbaycan həmin sənədlərin fəal iştirakçları sırasında yer alır. COP29-da da Azərbaycan Tərəfdaşlar Konfransına sədrlik edəcəyi müddətdə bir sıra təşəbbüslərlə çıxış edəcək və qlobal iqlim dəyişikliyi problemlərinin həlli istiqamətində öz töhfələrini verəcək.